# GÜLƏLİYEV OQTAY GÜLƏLİ OĞLU



Güləliyev Oqtay Güləli oğlu 10 noyabr 1962-ci ildə Laçın rayonunun Xaçınyalı kəndində anadan olmuşdur. 1982-ci ildə orta məktəbi bitirmiş və hərbi xidmətə çağırılmışdır. O, 1984-cü ildə Poltava Kooperativ İnstitutunun Bakı filialına daxil olmuşdur. 1989-cu ildə institutun iqtisadiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirərək, Laçın rayon Daxili İşlər Şöbəsində pasport bölməsində baş inspektor, sonra isə polis rotasının komandiri təyin olunmuşdur. Məlum “Daşaltı əməliyyatı” zamanı rotası mühasirəyə düşmüşdür. O, 80 nəfər əsgərimizi təhlükəsiz zonaya çıxarmağa müvəffəq olmuşdur. Pir cahan kəndi yaxınlığında yaralanan Oqtay hospitalda müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıtmışdır. 1992-ci il sentyabrın 19-da O.Güləliyev Laçın dəhlizində - əvvəlcə Hocaz kəndini, sonra isə ’’Nərgiz” yüksəkliyini ələ keçirmək planı hazırlayaraq, rotası ilə birlikdə düşmənin canlı və hərbi texniki qüvvəsini məhv etmişdir. Sus və Qızılca kəndlərindən keçib yenidən Hocaz kəndinə dönərkən mühasirəyə düşmüşdülər. O, yoldaşlarını çətin vəziyyətdən xilas edərək, onları təhlükəsiz yerə keçirsə də, özü qəhrəmancasına həlak olmuşdur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. İki övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 11 may 1993-cü il tarixli 599 saylı Fərmanı ilə Güləliyev Oqtay Güləli oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Laçın şəhərində və Piçənis kəndində adına məktəb var.